**Ismayıllı rayonunda “Azərbaycan 2020: Gələcəyə Baxiş” İnkişaf Konsepsiyasının “Informasiya- kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi” bölməsi çərçivəsində nəzərdə tutulan öhdəliklərin icrasının qiymətləndirilməsi**

**MONİTORİNQİ**

Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun icra etdiyi İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi (Swiss Agency for Development and Cooperation) "Azərbaycanda inkişafı təşviq etmək üçün müzakirə platforması" (AİTEMP) qrant layihəsi çərçivəsində növbəti monitorinq səfəri 2016-ci il iyulun 29-30-da İsmayıllı rayonunda olmuşdur. Səfərdə “Azərbaycan 2020: Gələcəyə Baxiş” İnkişaf Konsepsiyasının “Informasiya- kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi” bölməsi çərçivəsində nəzərdə tutulan öhdəliklərin icrasının qiymətləndirilmişdir.

Səfər çərçivəsində İsmayıllı rayon İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqov, İcra Hakimiyyəti başçısının müavini Mahmud Süleymanov, eləcə də Rayon Telekomunikasiya İdarəsində görüşlər olmuş və yeni avadanlıqlara baxış keçirilmişdir.

Mahmud Süleymanov bildirmişdir ki, son illərdə rayonda informasiya texnologiyalarının inkişafı ilə əlaqədar müəyyən işlər görülmüşdür. Belə ki, 2012-ci ildə Quşencə, Qalınçaq Ruşan, Göytəpə, Talıstan. Diyallı, Təzəkənd, Cülyan, Ağbulaq, Tircan, Basqal, Keyvəndi kəndlərinə 72 km. fibro-optik kabellər çəkilmiş, 1300 nəfər abunəçi genişzolaqlı internetə qoşulmuşdur.

Onun sözlərinə görə, 2013-cü ildə İsmayıllı şəhərinin 6 küçəsində 6,4 km. hava rabitə xətləri yeraltı kabel kanalizasiyasına keçirilmişdir. 2014-cü ildə Lahıcda 20,7 km. fibro-optik

kabel çəkilmiş, internet avadanlıqları qoyulmuşdur. Şəhərdə 2 km-dən çox hava rabitə xətləri yeraltı kabel kanalizasiyasına keçirilmişdir. Şəhərdə 544 nömrəlik yeni EATS qurularaq istifadəyə verilmişdir. 2015-ci ildə Mollaisaqlı kəndinə 4,2 km., Uştal kəndinə 0,5 km. fibro-optik kabellər çəkilmiş, hər iki kəndə 48 portluq DSLAM avadanlığı quraşdırılmışdır. Qurbanəfəndi və Xanagah kəndlərinə yeni avadanlıqlarla yüksək sürətli internet verilmişdir. Şəhər məkəzi EATS-ə 896 portluq yeni internet avadanlığı qoyulmuşdur.

Monitorinq nəticəsində bəlli olmuşdur ki. 2016-cı ildə şəhərdə 2,4 km. fibro-optik kabellər çəkilmiş, 128 nömrəlik EATS, 32 portluq interner avadanlığı qurularaq istifadəyə verilmişdir. 2012-ci illə müqayisədə 2016-cı ildə internet avadanlıqlarının sayı 29 vahid artırılaraq 49-a, montaj olunmuş portların sayı 4288 vahid artırılaraq 5284-ə çatdırılmışdır. İnternetdən istifadə edən abonentlərin sayı 3452 vahid artaraq 4175 vahid təşkil edir. Müqayisə olunan dövrdə km. fibro-optik kabellərin uzunluğu 73,9 km. artmışdır və hazırda 127,3 kilometrdir. Rayonun təhsil müəssisələrində 1200-dən artıq kompüter, 46 ədəd elektron lövhə, 100-dən artıq proyektor mövcuddur. Kompüterlərin 575-i, elektron lövhələrin hamsı, printer-skaynerlərin 145 ədədi məktəblərə 2012-2016-cı illər ərzində verilmişdir. Məktəblərin əksəriyyəti sürətli internet şəbəkəsinə qoşulmuşdur.

**Mövcud çətinliklər**

Monitorinq zamanı İsmayıllı rayon telekominikasiya sahəsində qeyd edilən uğurlar ilə yanaşı bir sıra çətinliklər də müəyyənləşdirilmişdir:

- Maliyyə imkanlarının məhduddluğu. İsmayıılı rayonuna son illər diqqət artırılsa da, maliyyə resurslarının məhduddluğu xidmətin genişləndirilməsin neqativ təsir göstərməkdədir;
- Kadr potensialı. Müasir texnologiyanın istifadəsi sahəsində kadr çatışmazlığı müşahidə edilməkdədir. Texnologiyanın yeniləşməsinə uyğun olara kadr potenisalının genişləndirilməsində müəyyən qeyri-balans müşahidə edilir;
- Təlim və kursların sayının az olması. Monitroinq apardığımız Gəncə şəhərində olduğu kimi İsmayıllı rayonunda da telekominikasiya sahəsində çalışan işçilərn təlim və

kurslarda daha az iştirakı müşahidə edilməkdədir. Xüsusən də xarici ölkələrdə təşkil edilən ixtisas artırma proqramlarında işçilərin daha az iştirak halları qeydə alınıb. Bu isə onların peşəkar inkişafına mənfi təsir göstərməkdədir.

Bütövlkdə, İsmayıllı rayonunda aparılan monitorinq göstərmişdir ki, “2020- Gələcəyə Baxış” konsepsiyası qəbul edildikdən sonra İsmayıllı rayonunda telekominikasiyanın inkişafı müşahidə edilmişdir. Bununla yanaşı, post-neft dövr bu sahənin inkişafına daha innovativ yanaşmanı aktuallaşdırmışdır.

**Qeyd:** ***Monitorinq İsmayıllı rayonunda 29-30 İyul 2016-cı il tarixində Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun icra etdiyi İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi (Swiss Agency for Development and Cooperation) "Azərbaycanda inkişafı təşviq etmək üçün müzakirə platforması" (AİTEMP) qrant layihəsi çərçivəsində İqtisadi və Sosial İnkişaf Mərkəzinin (CESD) əməkdaşları Vüqar Bayramov və Zamiq Babayev tərəfindən aparılmışdır.***